# İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

*Elvira Babayeva*
*e.babayeva1992@gmail.com*
*Azərbaycan Milli Elmlər Akademiyası, İ.Nəsimi adına Dilçilik İnstitutu*

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr 2019
Dərc olunub: 5 dekabr 2019
©2019 ADBTİA.Bütün hüquqlar qorunur.

**Annotasiya:** bu məqalədə qlobal xarakter daşıyan ingilis dilinin öyrənilməsi zamanı qarşıya çıxan problemlər, ümumiyyətlə, bu dilin mənimsənilməsində ümumi göstəricinin aşağı olmasının əsas səbəbləri araşdırılmışdır. İnsan fəaliyyətinin reallaşdığı bütün sahələrdə ingilis dilinə olan tələbat hər ötən gün daha da artmaqdadır. Nəticədə, öz fəaliyyət sahəsində daha böyük məqsədləri hədəfləyən insanların əksəriyyəti bu dili öyrənməyə çalışır. Bununla belə, təcrübələr göstərir ki, ingilis dilini öyrənmə prosesinin subyektlərinin sayı ilə müqayisədə dili bilən fərdlərin sayı olduqca aşağıdır. İngilis dilini öyrənmə mərhələsində qarşıya çıxan bir çox problemlərin başlıca qaynağı dil öyrənmə məsələsi ilə bağlı yanlış yanaşma və metodlardır. Məqalədə bütün bu məsələlər müfəssəl şəkildə şərh edilmiş, habelə göstərilən çatışmazlıqlar və problemlərin hər biri öz həllini tapmışdır.

**Açar sözlər:** dil səriştəsi, ünsiyyət, kontekst, səssiz dövr, motivasiya, akademik səviyyə.

**Giriş.** Dünya əhalisinin ¼ -i (1,75 milyard) ingilis dilindən aktiv ünsiyyət dili kimi istifadə edir [5]. Bunun başlıca səbəbi dünyanın bir çox inkişaf etmiş və inkişafda olan ölkələrinin rəsmi dövlət dilinin ingilis dili olmasıdır. Bununla belə, elmi-texnoloji tərəqqi, dəyişən tələbatlar və müxtəlif sahələrdə artan maraqlar bu dilə meyli daha da gücləndirir. Nəticə etibarilə, ətrafda gördüyümüz insanların bir çoxu bu dili mənimsəməyə çalışır. Müxtəlif məqsədlərlə - daha yaxşı təhsil almaq, arzulanan işdə çalışmaq, xarici dildə ünsiyyət səriştəsi qazanmaq və s. ingilis dilini öyrənən insanların sayı get-gedə daha da artır. Bununla belə, nəticələr əksər hallarda gözləntiləri qarşılamır. Belə ki, ingilis dilini bilən insanların sayı, bu dili öyrənənlərin sayına nəzərən olduqca aşağıdır. İngilis dili öyrənmək üçün müxtəlif alternativ vasitələrin mövcudluğu bu problemi aradan qaldırmır.

**Tədqiqat metodları.** Tədqiqat işində,əsasən, təsviri (deskriptiv) metoddan, dilin zahiri ilə bağlı məsələlərin araşdırlmasında sosialoji, məntiqi, psixoloji, dilin xarici ilə bağlı məsələlərin araşdırılmasında isə sistemləşdirmə və paradiqmalar üsullarından istifadə olunmuşdur.

**Müzakirə.** İngilis dilini sürətli şəkildə mənimsəmə tendensiyası onun dünyadakı nüfuzu ilə əlaqədar ortaya çıxsa da, hazırda bunun başlıca səbəbi təhsil və karyera həyatındakı əhəmiyyətidir. Bu dilin müxtəlif ölkələrdə təhsilin ayrı-ayrı pillələri üçün tələb kimi irəli sürülməsi, iş həyatında qarşıya qoyulan daha böyük hədəflərə çatmaq üçün yenidən bu dilin maneə olaraq ortaya çıxması dili öyrənən insanların sayının getdikcə çoxalmasına səbəb olur. İngilis dilinə tələbatın sürətlə artması dünyanın hər yerində, o cümlədən Azərbaycanda həm dövlət və həm də özəl təhsil müəssisələrində bu dilin tədrisinə xüsusi olaraq diqqət yetirilməsinə səbəb olub[4. s355]. Bununla yanaşı, ingilis dilini öyrətməyi hədəfləmiş müxtəlif tədris mərkəzləri fəaliyyət göstərir.

Əsasən, Britaniyanın ən qabaqcıl universitetlərinin nəşriyyatlarında müxtəlif dil səviyyələri üzrə dərc edilən kitabların çoxluğu ingilis dilini öyrənmək istəyənlərin qarşısında yeni imkanlar açdığı kimi, müəyyən qədər mental xaosun yaranmasına da səbəb olur. Xarici dildə dil materiallarının sadədən mürəkkəbə doğru sistemli şəkildə öyrədilməsi və öyrənilməsi, sonrakı mərhələdə müvafiq imtahanların təşkili üçün Avropa Şurası tərəfindən Dillər üçün Ümumi

Avropa İstinad Cədvəli (CEFR) hazırlanmışdır:

| | |
|---|---|
| **C2** | Akademik (koqnitiv) materiallarla rahat işləmək və xarici dili həmin dildə dil səriştəsi orta səviyyədə olan bir dil daşıyıcısından (məs., ingilis dilini ingilisdən) daha yaxşı bilməyi ehtiva edir. |
| **C1** | Təmamilə yad olan müxtəlif mövzularda asanlıqla müzakirəyə daxil olmaq, praqmatik baxımdan məlumat mübadiləsində tam olaraq iştirak edə bilmək bacarıqlarını ehtiva edir. |
| **B2** | Xarici dildə əsas hədəflərə nail olmaq və bir çox mövzularda özünü rahat şəkildə ifadə edə bilmək səriştəsini ehtiva edir. |
| **B1** | Tanış kontekstlərdə özünü tam şəkildə ifadə edə bilmək və tanış olmayan ümumi mövzularla bağlı məhdud şəkildə olsa belə fikrini ifadə edə bilmək bacarıqlarını ehtiva edir. |
| **A2** | Sadə şəkildə məlumat mübadiləsi və tanış kontektlərdə özünü ifadə edə bilmək bacarıqlarını ehtiva edir. |
| **A1** | Sadə şəkildə ünsiyyət qurmaq, məlumat mübadiləsi etmək üçün bacarıqları ehtiva edir. |

İngilis dilini öyrənmək üçün kitablar, əsasən, bu cədvəli nəzərə alaraq hazırlanır [6]. Qeyd etmək lazımdır ki, xarici dili öyrənərkən buraxılan ən böyük səhvlərdən biri də məhz bu dil səviyyələri üzrə təşkil olunmuş hansısa bir kitabı mənimsəmək və bununla da artıq həmin səviyyədə xarici dil səriştəsinə tam nail olduğunu düşünməkdir. Təəssüflər olsun ki, çox qısa müddətə bir dil səviyyəsini bitirmək anlayışı, əslində, sadəcə kitabın həmin səviyyə üçün nəzərdə tutulmuş nəşrini mənimsəyib bitirmək kimi başa düşülür və bu məsələ dil öyrənmə prosesində nəhəng bir boşluğun yaranmasına və məqsəddən uzaqlaşmağa səbəb olur.

İngilis dilini öyrənərkən qarşıya çıxan bir digər məsələ isə ünsiyyət, daha doğrusu onun azlığı və ya ümumiyyətlə yoxluğudur[1.s17]. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda ingilis dilini öyrənənlər praktik olaraq bildiklərini aktivləşdirmək üçün imkanların məhdud olduğundan şikayətlənirlər. İngilis dilini öyrənərkən ünsiyyətin məhdud şəkildə - yəni, yalnız onun tədrisi ilə məşğul olan müəllimlə qurulması dilin mənimsənilməsini ləngitdiyi kimi, müəllimin də danışıq məqamında dil öyrənənin səhvlərinə dərhal müdaxilə etməsi danışanın həvəsini itirməsinə, onda qorxu hissinin yaranmasına və nəticədə "mükəmməl olmadan danışmayacağı qərarına gəlməsinə" səbəb olur. Halbuki başlanğıc üçün ən effektiv yollardan biri öz-özünə danışmaqdır. Bunu reallaşdırmaq üçün ayrı-ayrı mövzularla bağlı sualların yer aldığı danışıq kitabçaları ilə yanaşı internetdə də sözügedən istiqamətdə müxtəlif materiallar tapmaq mümkündür. Öz-özünə danışmağın əsas üstün cəhəti odur ki, danışarkən səhv etməkdən çəkinən insanlar, başqalarının bu səhvləri eşitməyəcəyini bildiklərindən bütün komplekslərdən azad olur və "səssiz dövrü" (silent period) tərk edərək ilkin danışıq bacarıqlarını əldə edirlər. Bundan əlavə, müxtəlif danışıq klublarında iştirak etmək, internet vasitəsilə dil daşıyıcısı və qeyri-dil daşıyıcısı ünsiyyət partnyoru tapmaqla ingilis dilində danışıq bacarıqlarını akademik səviyyəyə qədər (C2) yüksəltmək mümkündür [1.s12].

Dinləmə və eşitdiyini anlama dilin aktuallaşması məqamında olduqca mühüm

ünsürdür [3, 48]. İngilis dilini öyrənənlərin bu fakta kifayət qədər əhəmiyyət verməməsi nəticənin zəifliyində, hətta yoxluğunda özünü göstərir. Dinləmə materialını seçərkən, iki məsələyə diqqət yetirilməlidir:

1. Dinləmə üçün seçilən dil materialı müxtəlif dil səviyyələrinə uyğun olmalıdır, əks təqdirdə asan olan dinləmə materialı inkişafa kömək olmadığı kimi, vaxt itkisinə də səbəb olduğu halda, çətin olan dil materialı dil öyrənənin motivasiyasını təmamilə öldürə bilər [3.s 44]. Bundan başqa ingilis dili çoxsaylı fonetik hadisələrin (assimilyasiya, elizia, birləşmə, reduksiya və s.) baş verdiyi bir dildir. Bu fonetik hadisələr canlı danışıq dilində olduqca yüksək işlənmə tezliyinə malik olduğu üçün, dil öyrənmədə yuxarı səviyyədə olan dinləmə materialları bu fonetik hadisələrlə olduqca zəngindir. Odur ki, dil səviyyəsi aşağı olan biri üçün həmin səviyyəyə müvafiq dinləmə materialını anlamaq belə çətin olduğu halda, fonetik hadisələrlə zəngin bir materiala qulaq asmaq təmamilə yararsızdır;

2. İngilis dilinin müxtəlif variantları arasında müəyyən fərqlər olduğu üçün, davamlı olaraq ancaq eyni varianta qulaq asmaq əvəzinə, müntəzəm şəkildə dil variantlarının hər birini (Britaniya, Amerika, Kanada, Avstralia və s.) dinləmək və mənimsəmək lazımdır.

İngilis dilini öyrənərkən haqlı olaraq, ən çox diqqət yetirilən məqam dilin lüğət tərkibini, yəni, bacardığın qədər hər dil səviyyəsinə uyğun olaraq müvafiq sözlər öyrənməkdir. Lakin bu zaman da, aşağıdakı faktorlara diqqət yetirmək lazımdır:

1. Çox sayda yeni sözləri əzbər olaraq praktikasız öyrənmək effektiv nəticə vermir. Çünki onlar qısa müddətli hafizəyə daxil olur və istifadə olunmadığı üçün yeni sözləri öyrəndikcə çox qısa müddətə də unudulur. Buna görə də, daha az sözləri, daha effektiv şəkildə öyrənmək, unutmamaq üçün tez-tez cümlələrdə işlətmək lazımdır.

2. Sözləri yalnızca tərcümələri ilə deyil, müvafiq kontekstlərdə öyrənmək lazımdır. Məhz tərcüməyə istinad etdikdə bir çox sözlərin sinonimik cərgə təşkil etdiyini görürük, lakin əksər hallarda bu sözlərin biri digərini əvəz edə bilmir, çünki hər sözün kontekstual olaraq öz mənası və yeri vardır. Odur ki, sözləri işləndiyi cümlələrlə birlikdə öyrənməklə həm onları daha yaxşı yadda saxlamaq, həm də doğru şəkildə işlətmək mümkündür.

3. İngilis dilində feillərin öyrənilməsinə xüsusi olaraq fikir vermək lazımdır. Cümlənin əsas informasiya yükünü ehtiva edən feillər həm də ən çətin leksik vasitələrdir və onlar bütün dillərdə, əsasən, dilin öz milli sözləri olur. Feillərin müvafiq leksik, qrammatik və üslubi xüsusiyyətləri ilə mənimsənilməsi dil öyrənmədə görülən işin böyük bir hissəsini təşkil edir.

4. Hər bir xalqın dili onu milli mədəniyyəti, adət-ənənələri ilə sıx bağlıdır. Bu xüsusiyyət ayrı-ayrı dil vahidlərində, əsasəndə frazeoloji birləşmələrdə öz əskini tapır. Odur ki, ingilis dilini öyrənərkən, ələlxüsus da, nisbətən yuxarı dil səviyyələrində dil səriştəsini təkmilləşdirərkən məcazi mənalı leksik vahidlərə xüsusi olaraq diqqət yetirmək lazımdır.

İngilis dilinin qrammatikası bu dili öyrənmədə xüsusi əhəmiyyət daşıyır. Lakin bu, nə ənənəvi dil öyrənmə prosesində olduğu kimi sırf nəzəri qrammatikaya fokuslanma, nə də tədris mərkəzlərində təbliğ olunduğu kimi qrammatikanı göz ardı etmə deməkdir. Yalnız nəzəri qrammatikaya köklənmək, praktik dildə səriştə qazanmaq üçün səmərəsizdir. Bununla yanaşı, ingilis dilini öyrənərkən ilkin səviyyələrdə qrammatikaya çox da əhəmiyyət verilməsə də, bu dili akademik səviyyədə öyrənənlər qrammatikaya xüsusi olaraq fikir verməli, onu tam şəkildə mənimsəmək üçün müvafiq səviyyələrdə olan qrammatika kitablarında praktik tapşırıqları işləyərək bu istiqamətdə biliyini təkmilləşdirməyə çalışmalıdırlar.

Son olaraq qeyd edək ki, ingilis dilini öyrənərkən ən çox buraxılan səhvlərdən biri də bu prosesin çox qısa müddətə başa gələcəyini düşünmək və bunu reallaşdırmağa çalışmaqdır. Bu səhvin buraxılmasının müxtəlif səbəbləri vardır. Xarici dilləri öyrədən tədris mərkəzlərinin “qısa müddətə

dil öyrənmək" və ya ətrafımızda olub bu dili artıq danışan insanların yanlış yönləndirmələri bu problemin qaynağı ola bilirlər. Müddətin qısaldılması istəyi xarici dili öyrənmə prosesinin məcburiyyət prizmasında reallaşmasından irəli gəlir.

Dil öyrənmə bir çoxlarının düşündüyünün əksinə, çox qısa müddətli bir proses deyil. Buna görə də, ingilis dilini öyrənməyə başlayarkən hansısa hədəfin təsiri ilə yola çıxanların çoxu yarı yolda həvəsdən düşə bilirlər.

**Nəticələrin təhlili.**Əgər dil ünsiyyət vasitəsi kimi reallaşmır və nəticədə öz funksiyasını icra etmirsə, o zaman hansı dil öyrənmə prosesindən söhbət gedə bilməz.Əsas məsələ, istənilən halda danışarkən buraxdığın səhvlərin heç birinə (fonetik, leksik, qrammatik, üslubi) məhəl qoymadan ünsiyyətin davamlılığına nail olmaqdır.

Dil bilgisi dərinləşdikcə bu səhvlərin sayı tədricən azalır və müntəzəm olaraq danışdıqda zamanla bu say demək olar ki, yox səviyyəsinə çatır [2.s 91].

İngilis dilini öyrənməyin bəlkə də, ən effektiv yolu onu çox dinləməkdir. Ümumiyyətlə, ana dilini öyrəndiyimiz kimi, bir dili öyrənmək üçün onu ətraf mühitdən sürəkli eşidərək mənimsəmək lazımdır.

İngilis dili tədrisinin böyük bir qismini, təbii olaraq, dilin lüğət tərkibinin – yəni sözlərin, bununla yanaşı, qrammatikanın öyrədilməsi və ya öyrənilməsi tutur. Bu məqamda qeyd etmək lazımdır ki, çoxsaylı sözlərin tərcümələrini əzbərləyərək öyrənmək, habelə, ingilis dilinin ənənəvi tədrisində olduğu kimi qrammatikanın hər bir detalının dərinliyinə getmək və ya hazırda ən çox istifadə olunan "innovativ" adlandırdığımız – qrammatikanın yalnız danışıq vasitəsilə öyrənilməsi metodlarının hər birinin özünə görə üstünlüyü olsa da çatışmayan cəhətləri daha çoxdur.

İngilis dilinin müxtəlif səviyyələrlə (A1, A2, B1, B2, C1, C2) mənimsənilməsi üçün hazırlanan kitablarda dilin qrammatika, leksika və sintaksisini öyrətməklə, eyni zamanda xarici dildə 4 dil bacarığının – danışıq, dinləmə, oxu, yazı bacarıqlarının yaradılması və inkişafı nəzərdə tutulmuşdur. Lakin bu səviyyələrin hər hansı biri üzrə yalnız həmin kitabla məşğul olmaq səmərəsizdir.

Dil səviyyələrinə müvafiq olaraq əlavə materiallardan istifadə edilməsi həmin səviyyəni daha müfəssəl səviyyədə mənimsəməyə kömək olur. Bu, özünü hər səviyyəni bitirdikdən sonra verilən imtahanların nəticəsində də göstərir [7].

Qeyd olunan problemləri aradan qaldırmaq üçün ingilis dilini öz maraq dairəsinə uyğun olaraq əyləncəli bir yolla öyrənmək və dil öyrənmə məsələsini xüsusi olaraq diqqət yetirdiyin əziyyətli bir iş kimi görmək əvəzinə, onu gündəlik həyat tərzinin bir parçası olan maraqlı bir fəaliyyət növünə çevirmək lazımdır.

**Yekun nəticələr.**İngilis dilini öyrənmə prosesi onu hansı məqsədlə öyrəndiyinlə sıx əlaqədardır. Praktik əsası olmayan test imtahanları üçün dil öyrənmə proseduru subyektə uyğun olaraq dəyişdiyinə görə çox qısa müddətdə də reallaşdırıla bilər. Lakin dili daha böyük akademik məqsədlərlə və ya şifahi və yazılı ünsiyyət üçün öyrəndikdə prosedurun həm mahiyyəti, həm də müddəti dəyişir. Bu məqamda vurğulumaq lazımdır ki, qeyd olunan məqsədlərlə ingilis dilini öyrənmə prosesinə başlamaq üçün motivasiya, davam etmək üçün nizam-intizam gərəkdir. Odur ki, ingilis dilini öyrənmək, bu dildə dörd istiqamətinhər birində (danışıq, dinləmə, oxu, yazı) müəyyən nəticələr əldə etmək üçün dil öyrənmə prosesinin qısa müddətə başa gəlməyəcəyini qəbul edərək, mütəşəkkil formada çalışmaq lazımdır. Dil ünsiyyət vasitəsi olduğu üçün, ingilis dilini ancaq nəzəri şəkildə mənimsəmək məqsədə çatmaq üçün yararsızdır. Buna görə də, bu dil praktik şəkildə öyrənilməli, müntəzəm olaraq bu dildə dinləmə materiallarına qulaq asılmalı, ünsiyyət qurmağa cəhd göstərilməlidir. Qarşıya qoyulan məqsədə nail olmaq, müvafiq nəticələr əldə etmək üçün müəyyən sistem yaratmaq, ingilis dilini planlı və ardıcıl şəkildə praktik vasitələrə üstünlük verərək öyrənmək lazımdır.

**Ədəbiyyat**

1. Gamble T.K., Gmable M., Communication works. New York: McGraw Hil, 2012, p. 544.
2. Hüseynova F. İngilis dilində kommunikativ vərdişlərin qazanılmasında problemlər və çətinliklər. Azərbaycanda Xarici Dillər, No 3 (29)/2015, s. 89-96.
3. Richards J.C., Rodgers T. Approaches and methods in laguage teaching. Cambridge: Cambridge University Press, 2002, p. 171.
4. Veysəlli F.Y. German dilçiliyinə giriş. Bakı: Mütərcim, 2011, 408 s.
5. https://www.britishcouncil.org/sites/default/files/english-effect-report-v2.pdf
6. https://www.cambridgeenglish.org/Images/126011-using-cefr-principles-of-good-practice.pdf
7. https://www.examenglish.com/CEFR/cefr.php

## Актуальные проблемы изучения английского языка

*Эльвира Бабаева*
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

**Аннотация:** В этой статье исследованы проблемы, возникшие в процессе изучения английского языка несущий глобальный характер и в целостности основные причины низкого показателя освоения данного языка. С каждым днем спрос на английский возрастает во всех сферах человеческой деятельности. В результате, большинство людей, которые стремятся к большим целям в своих областях, пытаются выучить этот язык. Однако опыт показывает, что в нашей стране количество людей, владеющих английским языком, намного меньше, чем число людей, участвующих в процессе изучения английского языка. Основным источником многих проблем, возникающих в процессе изучения английского языка, является неправильный подход и методы изучения языка. Все эти вопросы подробно объясняются в статье, также каждый из этих недостатков и проблем разрешилась.

**Ключевые слова:** языковая компетенция, общение, контекст, период молчания, мотивация, академический уровень.

## The actual problems of learning the english language

*Elvira Babayeva*
*Azerbaijan State Academy of Physical Culture and Sport*

**Annotation:** The problems connected with learning English as a global language, and generally, the reasons of the lower overall indicators in the acquisitions of this language have been researched in this article. The demand for English is increasing in all areas of human activity with each passing day. As a result, the majority of people who are aiming for greater goals in their fields try to learn this language. However, experience shows that the number of individuals knowing English is much lower than the number of people participatingin the English language learning process in our country. The main source of many problems encountered in the English language learning process is the wrong approach and methods of language learning. All of these issues are explained in details in the article, each of these shortcomings and problems is solvedas well.

**Key words:** language competence, communication, context, silent period, motivation, academic level.